Avropa Statistika Bürosu bu ilin ilk rübündə Avropa Birliyi ölkələrində sığınacaq axtaran şəxslərə dair məlumatları açıqlayıb.

APA-nın məlumatına görə, bu ilin ilk üç ayında 650 Azərbaycan vətəndaşı sığınacaq üçün AB ölkələrinə müraciət edib. Soydaşlarımızın 44 faizi (285 müraciət) Fransadan 29 faizi (190 müraciət) Almaniyadan, 9 faizi İsveçdən, 8 faizi Belçikadan, 6 faizi Niderlanddan sığınacaq istəyib.

Cənubi Qafqaz ölkələri sırasında AB ölkələrindən ən az sığınacaq istəyən Azərbaycan vətəndaşlarıdır. Qeyd olunan müddətdə 2315 Gürcüstan və 1355 Ermənistan vətəndaşı sığınacaq üçün AB ölkələrinə müraciət edib. Gürcü və ermənilər əsasən Fransa və Almaniyadan sığınacaq istəyir.

“Avrostat”ın məlumatına görə, AB ölkələrindən sığınacaq istəyənlər arasında Rusiya, Pakistan və Serbiya vətəndaşları üstünlük təşkil edir.